

# Xalqlarımızı ortaq tarix, mədəniyyət birləşdirir

## *Bu bağlılıq Azərbaycanın İranla etibarlı əməkdaşlığında mühüm əhəmiyyət kəsb edir*

*İran Azərbaycan Respublikasına yaxın dövlətdir. Odur ki, iki qonşu və müəyyən mənada qohum dövlətin əlaqələrinin inkişafı, əməkdaşlığı regionun da rifahına və təhlükəsizliyinə təkan verə bilər. İran əhalisinin böyük bir hissəsinin azərbaycanlı olması isə münasibətlərə xüsusi diqqət ayrılmasını tələb edir. Bu, Azərbaycanla İranı bir-birinə daha yaxın edən amillərdəndir.*

1993-cü ilin iyun ayında ölkə Prezidenti vəzifəsinin icrası ona həvalə olunanda Heydər Əliyev beynəlxalq təmasların diversifikasiyası üçün Azərbaycanın xarici əlaqələrində yeni bir formada tarazlıq yaratmağa çalışdı. İlk addım olaraq Ulu Öndər MDB-yə qoşularaq Rusiya ilə münasibətləri normallaşdırdı. O, İranla da Rusiya kimi yaxın münasibətin tərəfdarı idi. Buna görə də hakimiyyətə qayıdışından sonra Tehran Dağlıq Qarabağ münaqişəsində Ermənistanı tənqid edən siyasi xətt yürütməyə başladı. Ümummilli Lider Naxçıvanı mərkəz Bakıdan müstəqil şəkildə idarə etdi. İranla bir sıra ticarət və enerji müqavilələri bağladı. Heydər Əliyevin İran səfəri zamanı "Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq haqqında" protokol imzalandı. İran liderləri ilə yaxşı əlaqələr qurulması hesabına İran Naxçıvana maddi yardım göstərdi. Naxçıvanın Türkiyə və İranla olan yaxın münasibəti Ermənistanın Naxçıvana tətbiq etdiyi blokada siyasətini boşa çıxardı.

Heydər Əliyevin Naxçıvana rəhbərliyi dövründə Tehran səfərində işlətdiyi bu ifadə onun o vaxtkı Bakı ilə müqayisədə hansı formada fərqli xarici siyasət yürütdüyünü aydın göstərirdi: "Heç bir şeytan İranla olan münasibətlərimizi poza bilməz". İranın Dağlıq Qarabağ münaqişəsində rolunu analiz etdikdə bu ölkənin münaqişənin həllində neytral mövqe sərgilədiyi, müəyyən məqamlarda tərəfləri barışdırmağa cəhd göstərdiyi, lakin bölgədə hegemon olmağa çalışan digər regional güclərin təsiri ilə bunu bacara bilmədiyi nəticəsinə gəlmək mümkündür. İranın 1991-1993-cü illərdə Azərbaycanla olan münasibəti Azərbaycan rəhbərliyində olan şəxslərin İrana olan münasibəti ilə müsbətdən-mənfiyə, mənfidən-müsbətə doğru dəyişmişdir.

Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə iki ölkə arasında yaranmış və ya yaradılmış soyuq münasibət gərginliyə səbəb olmuşdu. Belə ki, İran vətəndaşı olan iş adamları, sürücülər Azərbaycan ərazisində qanunsuz fəaliyyət göstərmiş və Qafan-Gorus avtomobil yolundan qeyri-qanuni istifadə etmişdilər. İran tərəfi bu qanunsuzluğu sonradan müxtəlif bəyanatlarla etiraf etmişdi. Ötən il noyabrın 10-da isə İran İslam Respublikasının rəsmiləri, deputatları Azərbaycanı Zəfər Günü münasibətilə təbrik etmişdilər. Əslində, bu təbriklər Azərbaycanın ərazi bütövlüyünün yenidən tanınması, münaqişənin bitdiyinin, statusun cəfəngiyyat olduğunun, regionda əməkdaşlığın və təhlükəsizliyin vacibliyinin etirafı idi.

Noyabrın 28-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti İbrahim Rəisi ilə görüşdə deyib ki, bizim xalqlarımız qardaş xalqlardır. Əsrlər boyu bir yerdə yaşamışıq. Qohumluq əlaqələri kifayət qədər genişdir: "Xalqlarımızı ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Bu, çox gözəl zəmindir. Biz bu zəmin üzərində ikitərəfli əlaqələrin müasir tarixini yazırıq", - deyə Prezident İlham Əliyev vurğulayıb. İran Prezidenti Seyid İbrahim Rəisi son zamanlarda nazirlər və nazir müavinləri səviyyəsində Bakı ilə Tehran arasında "çox yaxşı təmasların olduğunu" qeyd edib. Seyid İbrahim Rəisi onu da qeyd edib ki, Azərbaycan ilə İran arasında münasibətlər təkcə qonşuluq münasibətləri deyildir, bizim ürəklərimizin münasibətidir, iki ölkənin xalqlarının ürəkləri bir döyünür: "Bizim tarix və sivilizasiya birliyimiz vardır. Bütün bunlar bizi daha da möhkəm birləşdirir. Biz heç vaxt imkan verməməliyik ki, digərləri bizim münasibətlərimizə müdaxilə etsinlər. Biz öz məsələlərimizi özümüz həll etməliyik, münasibətlərimizi irəliyə aparmaq, qarşılıqlı faydalı əməkdaşlığı daha da dərinləşdirmək üçün birgə işləməliyik. İndiyə qədər olan təcrübə də bunu göstərir ki, biz həmişə öz məsələlərimizi özümüz müzakirə edəndə onların bir çoxunun həllinə nail olmuşuq və qarşıdakı maneələri dəf etmişik", - İran Prezidenti belə söyləyib.

Ümumiyyətlə, 2021-ci ilin ilk 8 ayında Azərbaycanla İran arasında ticarət dövriyyəsinin həcmi 256,011 mln. ABŞ dolları təşkil edib. Bu da 2020-ci ilin uyğun dövrü ilə müqayisədə 25,4 faiz çoxdur. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3,4 mlrd. dollar sərmaye qoyulub. Aşqabad görüşü də iki ölkə arasında əlaqələrin və əməkdaşlığın inkişafına yeni təkan verə bilər. Bu görüş həm də tərəflər arasında faydalı əməkdaşlıq mühitinin yarandığından xəbər verir.

Aşqabadda İran, Azərbaycan və Türkmənistan arasında qaz mübadiləsinə dair üçtərəfli saziş imzalanıb. İmzalanma mərasimində Prezident İlham Əliyev və İran Prezidenti İbrahim Rəisi iştirak edib. Görüşdə İranla Azərbaycan arasında təbii qazın tranzit nəqli ilə bağlı sənəd imzalanması mühüm əhəmiyyətə malikdir. Bu razılaşma iki dövlət arasında energetika sahəsində əməkdaşlığın inkişafına təkan verə bilər. Eyni zamanda, görüşdə Azərbaycanla İran arasında Şimal-Cənub nəqliyyat dəhlizi, həmçinin Zəngəzur dəhlizi çərçivəsində əməkdaşlıq məsələləri də müzakirə olunub.

18 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Baş nazirinin müavininin rəhbərlik etdiyi, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının nümayəndə heyətinin İrana səfəri zamanı ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinin əhəmiyyətini vurğulayan bu dövlətin rəsmiləri işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpa işlərində hərtərəfli dəstək göstərməyə hazır olduqlarını ifadə etmişlər. Müzakirələr zamanı Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan-İran sərhədini dostluq sərhədi adlandırmasının İranda xoş qarşılandığı və yüksək qiymətləndirildiyi qeyd edilmişdir. Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlıq platforması çərçivəsində keçirilən Zirvə görüşlərinin davam etdirilməsinin əhəmiyyəti qeyd olunmuş, İranın Yol və Şəhərsalma Nazirliyində keçirilən görüş zamanı ölkələrimiz arasında yol-nəqliyyat və yüklərin daşınması sahələrində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə edilmiş, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində mövcud infrastrukturun təkmilləşdirilməsi, xüsusilə dəmir yolu ilə yük daşımaları sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin imkanları araşdırılmışdır. Energetika Nazirliyində keçirilən görüşdə ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlıq əlaqələri müzakirə olunmuş, icrada olan layihələrin sürətləndirilməsi istiqamətində atılacaq addımlar barədə fikir mübadiləsi aparılmışdır. Azərbaycan-İran-Rusiya enerji sistemlərinin sinxronlaşdırılması və Azərbaycan-İran-Türkiyə arasında elektrik enerjisi ticarəti məsələləri müzakirə edilmişdir. Araz çayının su və enerji potensialından səmərəli istifadə edilməsi üçün icra olunan layihələrin əhəmiyyəti vurğulanmışdır. "Ordubad" və "Marazad" su elektrik stansiyaları ilə bağlı məsələlər üzrə razılıq əldə olunmuş, o cümlədən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyalarının tikintisinin başa çatdırılması üçün atılacaq növbəti addımlar, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir.

Azərbaycanın müdafiə nazirinin də İran İslam Respublikasına səfəri Azərbaycan-İran hərbi əməkdaşlığında yeni səhifənin açıldığını təsdiq edir. Bu, İran rəsmilərinin Azərbaycanla hərbi əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını göstərməklə yanaşı, Azərbaycan-İran geniş spektrli münasibətlərinə yeni və aktual bir sahənin də əlavə olunması kimi qiymətləndirilə bilər.

"Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır. Müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət almışdır və regional əməkdaşlığın yaradılması üçün hazırda "3+3" çox ümidverici əməkdaşlıq platforması yaradılmışdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qaseminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən deyib. Dövlət başçısı vurğulayıb ki, "Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək".

**Mustafa KAMAL,**
**"Respublika".**